*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 429-433*
https://doi.org/10.62837/2024.3.429

**AĞAYEV MİRKAMİL MEHDI**
*Bakı Slavyan Unversiteti (BSU)*
*Bakı şəhəri, s.rüstəm küç., 33.*
*E-mail: mirkamilagayev987@gmail.com*

# "DİRİLƏN ADAM" ROMANINDA QƏDİRİN PSİXOLOJİ PORTRETİ

***Açar sözlər: Mir Cəlal, psixologiya, portret, obraz, roman***
***Key words: Mir Jalal, psychology, portrait, character, novel***
***Ключевые слова: Мир Джалал, психология, портрет, персонаж, роман***

Mir Cəlal öz yumoru, poetik dili, yazı manerası ilə oxucuya istənilən mövzunu oxuda bilən yazıçıdır. Müəllifin adı çəkilən kimi yada düşən ilk əsər " Bir gəncin manifesti" romanı olsa da Azərbaycan insanının daxili aləmini bütün incə detalları ilə göstərən altı romanı var. "Dirilən adam" (1934-1935), "Bir gəncin manifesti" (1938), "Açıq kitab" (1941), "Təzə şəhər" (1948-1950), "Yolumuz hayanadır?" (1952-1957), "Yaşıdlarım" (1946-1963). Qeyd olunan roman siyahısına baxdıqda müəllifin qələminin daim işlək olduğunu görürük. Təbii ki, hələ çoxsaylı hekayələrini nəzərə almamışıq. Mir Cəlal yumoristik hekayədə ustad səviyyəsində mahir sənət nümunələri yaratmışdır. Qeyd eləmək lazımdır ki, yazıçının müxtəlif mövzuda elmi əsərləri də mövcuddur. Bir çox oxucu (tələbə) məhz onun "Ədəbiyyatşünaslığın əsasları" (1972), "Klassiklər və müasirləri" (1973), "XX əsr Azərbaycan ədəbiyyatı : Ali məktəblər üçün dərslik" (1974), "XX əsr Azərbaycan ədəbiyyatı" (1982) və.s dərsliklərini oxuyaraq ədəbiyyatşünaslıq sahəsinə qədəm qoymuşdur.

Mir Cəlal bütün bu oxucu kütləsini böyük sənətkarlıq hesabına qazanmışdır. Məncə, bu sənətkarlığın ən önəmli amillərindən biri (bəlkə də birincisi) onun həm oxunaqlı, sadə, yumoristik, xəlqi həm də poetik dilinin olmasıdır. Bütün bu amilləri eyni anda bir yerdə tuta bilmək yazıçıdan geniş mütaliə, klassika biliyi, dili sərrast bilməyi və təbii ki, sənətkarlıq tələb edir. Mir Cəlalda, göründüyü kimi, bütün bu amillər yerindədir. Onun mütaliəsini, klassika biliyini romanlarında görməmək mümkün deyil.

"Dirilən adam" romanında da yuxarıda sadalanan xüsusiyyətləri görmək mümkündür. Romanı oxucuya oxudan ilk öncə onun dilidir. Müəllif bu romanında da dilin bütün imkanlarında istifadə etməyi bacarmışdır. İlk romanı olmağına baxmayaraq kifayət qədər uğurludur. Yaradılan obrazların, demək olar, hər biri tipdir. Obraz yaratmaqda göstərdiyi digər bir ustalıq isə bütün obrazların öz dilini verə bilməsidir. Təbii ki, obrazların hər biri eyni dil, eyni dialektlə danışır. Qeyd etmək istədiyimiz budur ki, müəllif obrazların baş verən hadisəyə münasibətini bildirərkən orijinallığa enə bilmişdir. Hər birini özü kimi danışdırmışdır. Məsələn,

Qədir hadisələrə Məşədi İslamın dili ilə reaksiya vermir, yaxud Qumru Qıssa xanımın və.s

Bunu qeyd etməyimizdə bir səbəb var. Məlumdur ki, roman oxuyarkən qəhrəmanların başından keçən hadisələr onları doğmalaşdırır. Sövqtəbii müsbət obraza rəğbət, mənfiyə isə ikrah yaranır. Adı keçən romanın bir fəslini bitirməmiş obrazları tanımaq olur. Çünki müəllif onların daxil aləmlərini, psixologiyalarını, xarakterlərini bu və ya digər yollarla açmağı bacarıb.

Qədir sadəlövh, öz dünyasında yaşayan (yaşamağa çalışan) avam kəndlidir. Onun daxili aləminin qapısı hələ ilk səhifələrdən aralanmağa başlayır. Qumruya ünvanladığı bu cümlələrə nəzər yetirəndə artıq onu zahirən tanımağa başlayırıq: "Səfeh olma, ağız!.. Bəbir bəy eləməz. Yox, eləməz. Canım üçün eləməz. Nə olub, deyir... eləsəydi, haçandan Bəndalını tutalı...", "Dabanlarımı çəkib Şeyxülislamın yanına gedərəm. Dünya başınadı bəyəm?", "Ağız, sən nə danışırsan? Bəndalını Nikolay öldürtdü. Bəndalı padşahnan kəllə-kəlləyə dururmuş" – bu cümlələr təbii ki, onun daxili aləminin alt qatlarına işıq tutmur. Amma bu yolla müəllif bizə obrazını tanıdır. [1, 40-41]

Daha sonra Qədirin Bəbir bəyin "A Qədir, sənin can naloqundan nə qədər durur?" sualına, " Biz özümüz də Nəsib bəy həzrətlərinə, hansı ki, xahiş edirəm onun şərəfinə yağa durun..." cümləsinə verdiyi reaksiyalar onun daxilinin nə qədər saf olduğundan xəbər verir. [1,42-47] Əlbəttə, Qədirin ayağa qalxmağını qorxu, gözəgirənlik kimi də qiymətləndirmək olardı, amma müəllif buna icazə vermir. Ardıyca belə qeyd edir: "Bu, Qədir üçün də, Qumru üçün də təzə məsələ idi. Onlar elə bilirdilər ki, yalnız bir adamın, Sahibəzzamanın adı gələndə ayağa qalxarlar". [1,47] Qədir ədəbiyyatın "balaca obraz"larından biridir. Tehran Əlişanoğlu bu haqda yazır: "Mir Cəlalın roman yaradıcılığının başında XX əsr həqiqətlərinin ( məhz inqilabi) silkələdiyi "dirilən adam" – saf, sadəzəmir olduğu qədər də avam-məzəli-aciz "balaca adam" durur. (Qədir – yumorla obraza lügəvi "qadir anlamını da vermək olar, "tale-qədər" daşıyıcısı yozumunu da!)" [2, 66]

Qədirin bir də əzilmiş, döyülmüş, mənəvi terrora məruz qalmış məzlum şəxsiyyəti var ki, onu da əsərdən bəzi misallarla qeyd edək: "Qədirin qulluq yeri yəqin ki, buradır. O, qatırçılarla vidalaşdı. Keyimiş qıçlarını açmaq üçün ovucları ilə diz qapaqlarını oynatdı. Ancaq içəri girməyə cəsarət etmədi", daha sonra Qədirə, "Burda dur, adam buraxma, qarovulsan, ixtiyarsız bir kəsi də yox! Bildinmi?" – deyiləndə "Baş üstə!" – deyib, gülümsəyib və yəqin ki, "qarovulsan" sözündən xoşhallanıb ayağını yerə bərk basıb qamətini düzəltməyi daxili aləminin qapısını bir az da aralayır. [1, 67]

Roman boyu Qədirin daxili aləmi, qeyd etdiyimiz kimi, səhifə-səhifə açılır. Onun qulluğa gəldiyi yerdə düşündükləri, bu düşüncələrindən yaranan jestləri onun "balaca" olduğunu təkrarən sübut edir. Müəlllif Qədirin simasında həmin dövrün şəxsiyyəti sınmış, alçaldılmış insanlarını göstərməyə çalışıb və bu, çox uğurlu alınıb. Romanı oxuduqda bəzən müəllifin xarakteraçma fəndlərinə heyranlıqla baxırsan. Məsələn: " Bu vahiməli xəyallarla Qədir dəsmalını çıxarıb üz-gözünü sildi. Yaxasını düymələdi. Qulluq məqamında donmuş kimi dümdüz dayandı". [1, 68].

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 429-433*

Mir Cəlalın "qulluq məqamı" deməyi, məncə birmənalı deyil. Çünki Qədirin özünü "qul" hesab elədiyini bilirik. Sanki vəzifə adamları onlar üçün, Allah olmasa da, yarı Allah idi. onların heç bir sağlam düşüncəyə sığmayan əmr və göstərişlərini Quran ayəsi bilib dərhal əməl edirdilər. Kaş biləydilər ki, Quran adama qul ol deyəndə naçalnikləri nəzərdə tutmur...

Daha sonra Qədirin Camış öldürüb özünü insan qatili bildiyi hissəyə nəzər salaq. Qədir qaraltı görən kimi, ürəyində qaranlıq bir hava burulğan kimi fırlanıb onu narahat eləməyə başlayır. Gün görməyən gözlərinin önündə ömür-gün yoldaşı Qumru və qızı Faxirə canlanır. Onun məhz o məqamda vicdan əzabı çəkməyi, silahı "ya bəxtim!" deyib açmağı, yəqin ki, onu bizim kimi bütün oxuculara sevdirib... Bu, ancaq sadəlövh, təmiz bir insanın yaşaya biləcəyi bir haldır. Müəllif ardından qeyd edir: "Toyuq başı kəsiləndə qəlbi çırpınan adam bir əjdahanı atəşə tutub yandırarmış.", "Yaşamaq üçün yaşamaq istəyəni məhv etməyi, həyat axtaranları məhv etmək zərurətini, yerləri qanla suvarmağı mənə haçan, kim öyrətdi?". [1, 74-76]

Romanda hadisələr inkişaf etdikcə Bəbir bəyin əvvəl "Qumru bacı", sonra "Qumru xanım" kimi çağırdığı qadını əldə etmək üçün həyasız səylərini görürük. Qumrunun "mərhum" ərinə olan sədaqəti təqdirəlayiqdir.

"Dirilən adam"ın kəndə qayıtması birmənalı qarşılanmadı. Tənələr, kinayələr havada uçuşurdu. Hamı "xortdan" görmüşə dönmüşdü. Amma o, həqiqətən də "dirilmişdi". Əsirlərdir klassik ədəbiyyatımızda adı keçən "xabı-qəflət"dən ayılmışdı. Ayılmaq, bilmək – sağlam düşünə bilmək, elə dirilməkdir. Qədir sadəlövh, cahil insan kimi çıxdığı səfərdə həqiqətən də öldü. Qanan, bilən, görən adam olaraq dirildi. Yazının əvvəlində qeyd etdiyimiz kimi, demək olar, bütün obrazlar tipdir. Bu faciə təkcə Qədirin yox, qədirlərin başından keçənlərdir. Bütün bunlar həmin dövrdə hökm sürən rejim üçün insan taleyi və şəxsiyyətinin nə qədər əhəmiyyətsiz olduğunu göstərir. Təyyar Salamoğlu bu haqda yazmışdır: "İnsan taleyinin ucuzlaşması, büsbütün dəyərdən düşməsi və nəticə etibarı ilə isə cəmiyyət əxlaqının "pozulmasıdır". [3]

Həqiqətən də Mir Cəlal yaradıcılığı heç də bir nəfərin, bir kəndin əhvalını bilmək üçün yox, bütöv bir məmləkətin insanını tanımaq üçün çox dəyərlidir. "Dirilən adam" romanında da məmləkətin necə bir alçaq düşüncənin işğalına məruz qaldığını bariz şəkildə görürük.

## ƏDƏBİYYAT

1. Paşayev, M. Dirilən adam: [3 clddə] / M. Paşayev. – Bakı: Çaşıoğlu, - c .1. – 2008. – 438 s.
2. Əlişanoğlu, T. Milli Azərbaycan obrazı. / T. Əlişanoğlu. – Bakı: Elm və təhsil, – 2017. – 611 s.
3. Salamoğlu. T. Mir Cəlal nəsri və müasirlik. / T. Salamoğlu – Bakı: Nəşriyyat – il. – səhifə.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 429-433*

**Ağayev Mirkamil Mehdi**

## "DİRİLƏN ADAM" ROMANINDA QƏDİRİN PSİXOLOJİ PORTRETİ

**Xülasə**

Böyük ədibimiz Mir Cəlal Paşayevin yaradıcılığı Azərbaycan ədəbiyyatı tarixində bir mərhələ təşkil edir. Mirzə Cəlil, Əbdürrəhim bəy Haqverdiyev qələmindən ona gəlib çatan satirik hekayə, tənqidi realizm və əlavə olaraq romançılıq onun yaradıcılığında özünün zirvəsinə yetişdi. Mir Cəlal kiçik hekayələrində belə bir romanlıq problematikanın həllinə yönəlmiş və uğurlu olmuşdur. Təhlilinə yönəldiyimiz " Dirilən adam" romanı da kiçik detallarla böyük problemlərin aşkara çıxarılması baxımından önəmlidir. Araşdırmamızda müəllifin sənəkarlıq məharətlərindən söz açılmış, onun çox kiçik, incə detallarla – bəzən bircə söz və ya ifadə ilə - obrazın daxil aləminə necə işıq sala bilməsindən bəhs açmışıq. Obraz yaratma çətin prosesdir. Müəllif ilk öncə onun motivasiyanı tapmaqla xarakterini qurmalı və bu xarakteri roman boyunca açmalıdır. Mir Cəlal qeyd olunan romanda bu işi ustad səviyyəsində bacarmışdır. Qədirin müxtəlif situasiyalarda verdiyi reaksiyalar ( bəzən komik, bəzən faciəvi) onun xarakterinə işıq salır. Araşdırmamızda əsər çərçivəsində dövrün ictimai-siyasi proseslərinə toxunmaqla o zamanın insanını tanımağa çalışmışıq. Bu proses Qədirin üzərində aparılmışdır. Çünki qeyd olunduğu kimi, bu faciə təkcə onun yox o dövrün bütün Qədirlərinin başından keçənlər idi.

**Aghayev Mirkamil Mehdi**

## PSYCHOLOGICAL PORTRAIT OF QADIR IN THE NOVEL "THE RESURRECTED MAN"

**Summary**

The work of our great writer Mir Jalal Pashayev constitutes a stage in the history of Azerbaijani literature. The satirical story, critical realism and, in addition, novelism that came to him from the pen of Mirza Jalil and Abdurrahim Bey Hagverdiyev reached their peak in his creativity. In Mir Jalal's short stories, such a novel was aimed at solving the problem and was successful. The novel "The Resurrected Man", which we are focusing on, is also important in terms of revealing big problems with small details. In our research, we talked about the artistic skills of the author, how he can shed light on the inner world of the image with very small, delicate details - sometimes with a single word or phrase. Creating an image is a difficult process. The author must first establish his character by finding his motivation and develop this character throughout the novel. Mir Jalal has mastered this work in the mentioned novel. Gadir's reactions in different situations (sometimes comical, sometimes tragic) shed light on his character. In our research, we have tried to get to know the people of that time by touching on the socio-political processes of

the period within the framework of the work. This process was carried out on Gadir. Because, as mentioned, this tragedy happened not only to him, but to all the Qadirs of that time.

Агаев Миркамиль Мехди

**ПСИХОЛОГИЧЕСКИЙ ПОРТРЕТ КАДИРА В РОМАНЕ “ВОСКРЕШЕННЫЙ ЧЕЛОВЕК”**

**Резюме**

Творчество нашего великого писателя Мир Джалала Пашаева представляет собой этап в истории азербайджанской литературы. Сатирический рассказ, критический реализм и, кроме того, романизм, пришедшие к нему из-под пера Мирзы Джалиля и Абдуррахим-бея Хагвердиева, достигли своего пика в его творчестве. В рассказах Мир Джалала такой роман был направлен на решение проблемы и имел успех. Роман «Воскресший человек», на котором мы остановимся, важен еще и с точки зрения раскрытия больших проблем в мелких деталях. В нашем исследовании мы говорили о художественном мастерстве автора, о том, как он может пролить свет на внутренний мир изображения с помощью очень мелких, тонких деталей – иногда одним словом или фразой. Создание имиджа – сложный процесс. Автору необходимо сначала установить своего персонажа, найти его мотивацию и развивать этого персонажа на протяжении всего романа. Эту работу в упомянутом романе освоил Мир Джалал. Реакции Гадира в разных ситуациях (иногда комичных, иногда трагических) проливают свет на его характер. В нашем исследовании мы попытались познакомиться с людьми того времени, затронув в рамках работы общественно-политические процессы того периода. Этот процесс был осуществлен на Гадире. Потому что, как уже говорилось, эта трагедия случилась не только с ним, но и со всеми кадирами того времени.

***Rəyçi: f.e.d , prof. Tehran Əlişanoğlu***